# Həyatın Yaşam Sığortası

## İstifadəçi Razılaşması

Mobil tətbiqdən və ya my.megalife.az veb saytından istifadə etməzdən əvvəl aşağıdakı şərtləri diqqətlə oxumağınız xahiş olunur. Tətbiqdən və my.megalife.az veb saytından istifadə etməklə siz bu Razılaşmada göstərilən bütün şərtləri əvvəlcədən qəbul etmiş hesab edilirsiniz.

### 1. Əsas anlayışlar

- **Şəxsi Kabinet** – istifadəçinin identifikasiya vasitəsilə daxil olduğu və yalnız ona aid məlumatların, xidmətlərin və əməliyyatların idarə olunduğu elektron sistem.
- **Mobil Tətbiq** – təşkilat tərəfindən hazırlanmış və mobil cihazlarda işləyən proqram təminatı, istifadəçilərə xidmətin funksiyalarına, məlumatlara və əməliyyatlara çıxış imkanı verir.
- **Üçüncü tərəf** – istifadəçi və sığortaçıdan başqa hər hansı tərəf.
- **Tərəflər** – "Meqa Həyat Sığorta" və istifadəçi.
- **İstifadəçi** – Razılaşmanı qəbul edərək tətbiqə daxil olan və tətbiq vasitəsilə təqdim olunan xidmətlərdən istifadə hüququna malik olan hər bir fiziki və hüquqi şəxs.

### 2. Ümumi müddəalar

- Şəxsi Kabinet yalnız şəxsi istifadə üçündür.
- Tətbiqdən və ya şəxsi kabinetdən istifadə etməzdən əvvəl hazırkı sənədi oxumaq və qəbul etmək vacibdir.
- "Mən Razıyam" düyməsini seçməklə və ya tətbiqdən istifadə etməklə, siz hazırki sənədi oxuduğunuzu, şərtlərini qeyd-şərtsiz qəbul etdiyinizi təsdiqləyirsiniz.
- İstifadəçi Kabinet vasitəsilə etdiyi əməliyyatların doğruluğuna görə tam məsuliyyət daşıyır və əlavə etdiyi məlumatların gələcəkdə sığorta hadisəsinin araşdırılmasında istifadə edilə biləcəyini və sığorta ödənişindən imtinaya əsas ola biləcəyini bilir.

### 3. Toplanılan məlumatların əhatə dairəsi;

- Şəxsi məlumatlar: Ad, soyad, doğum tarixi, cins, əlaqə məlumatları, şəxsiyyət vəsiqəsi.
- Maliyyə məlumatları: Bank hesabları, kredit kartları, gəlir və maliyyə vəziyyəti.
- Sığorta məlumatları: Sığorta növü, müqavilə, risklər, sığorta hadisələri, əvvəlki sığorta tarixçəsi.

- Məşğulluq məlumatları: İş yeri, vəzifə, əmək haqqı.
- Texniki məlumatlar: IP ünvanları, brauzer növləri, giriş və çıxış tarixləri, digər analitik məlumatlar.

## 4. Subyektin hüquqları

- Fərdi məlumatların toplanılması, işlənməsi və verilməsi üçün hüquqi əsas tələb etmək.
- Toplanmış məlumatların məzmunu ilə tanış olmaq.
- Məlumatların işlənmə məqsədi, müddəti, üsulları və onlara çıxış hüququ olan şəxslər barədə məlumat almaq.

## 5. Razılaşmanın qüvvədə olma müddəti

- Razılaşmanın müddəaları tətbiqdən ilk istifadə anından qüvvəyə minir və istifadənin tam dayandırılmasına qədər qüvvədə qalır.
- Hər hansı müddəanın qismən və ya tam etibarsızlığı Razılaşmanın digər müddəalarına təsir göstərmir.

## 6. Əqli mülkiyyət hüquqları

- Tətbiq və bütün tərkib hissələri şirkətə məxsusdur. İcazəsiz surət çıxarmaq, çoxaltmaq, dəyişiklik etmək, modifikasiya və uyğunlaşdırma aparmaq, əqli mülkiyyət bildirişlərinə müdaxilə etmək qadağandır. İstifadəçi bu hərəkətləri etməmək öhdəliyini qəbul edir.

## 7. Dəyişikliklər

- “Meqa Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyəti öz mülahizəsinə əsasən bu Razılaşmanın şərtlərinə dəyişikliklər etmək, onları əlavə və ya çıxarmaq, həmçinin tətbiqin fəaliyyətini qismən və ya tam şəkildə məhdudlaşdırmaq, müvəqqəti dayandırmaq və ya tamamilə dayandırmaq hüququnu özündə saxlayır.
- Razılaşmaya edilən dəyişikliklər və ya əlavələr barədə İstifadəçiyə tətbiq və sayt daxilində bildiriş yerləşdirilməsi yolu ilə məlumat verilə bilər. İstifadəçi bu cür dəyişikliklərdən sonra tətbiqdən və saytdan istifadəni davam etdirdiyi halda, həmin dəyişiklikləri və əlavələri qəbul etmiş hesab olunur və onlar avtomatik olaraq qüvvəyə minir.

## 8. Siyasi nüfuzlu şəxs və məlumat öhdəliyi

- İstifadəçi təsdiq edir ki, hazırda və ya keçmişdə siyasi nüfuzlu şəxs (PEP) deyil.

- Əgər gələcəkdə özü və ya yaxın qohumları PEP statusu alarsa, dərhal şirkəti məlumatlandıracaq.
- İstifadəçi siyasi nüfuzlu şəxsin yaxın qohumu olmadığını təsdiqləyir; gələcəkdə belə bir vəziyyət yaranarsa, şirkəti dərhal məlumatlandıracaq.

## 9. Məhdudiyyətlər

- Tətbiqdən qanunsuz, fırıldaqçılıq və terrorçuluq məqsədli istifadə qadağandır.
- Kabinet və tətbiqi üçüncü tərəflərlə paylaşmaq qadağandır.

## 10. Yekun müddəalar

Bu razılaşmada müəyyən edilmiş müddəalar Mobil tətbiq və şəxsi kabinetin İstifadəçi tərəfindən ilk dəfə istifadə edildiyi andan başlayaraq istifadəni tam dayandırdığı anadək məcburidir.

Tərəflər müqavilənin icra edilməsi və ya xitamı ilə bağlı bütün xəbərdarlıq və məlumatları sığorta müqaviləsində qeyd olunan ünvanlara və ya əlaqə vasitələrinə göndərirlər. Ünvanlar və ya əlaqə vasitələri dəyişdiyi halda, bir tərəf o biri tərəfi əvvəlcədən məlumatlandırmalıdır.

Bu Razılaşmadan irəli gələn bütün mübahisələr danışıqlar yolu ilə həll edilməlidir. Danışıqlar yolu ilə həll mümkün olmadıqda, Tərəflər qanunvericilidə nəzərdə tutulmuş mübahisələrin məhkəmə yolu ilə həllindən istifadə edəcəkdir.